**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi aşağıdakı vəzifələrin tutulması üçün daxili müsahibə ELAN EDİR:**

| № | Struktur bölmənin adı | Vəzifənin adı | Ştat sayı |
|---|---|---|---|
| 1 | Qida təhlükəsizliyi şöbəsi | şöbə müdiri | 1 |
| 2 | Qida təhlükəsizliyi şöbəsi, Risklərin və böhran vəziyyətlərinin idarə edilməsi sektoru | böyük məsləhətçi | 1 |
| 3 | İdxal və ixraca nəzarət şöbəsi | baş məsləhətçi | 1 |
| 4 | Bakı regional bölməsi, Qida təhlükəsizliyinə nəzarət sektoru | baş məsləhətçi | 1 |
| 5 | Xaçmaz regional bölməsi, Qida təhlükəsizliyinə nəzarət sektoru | sektor müdiri | 1 |
| 6 | Şamaxı regional bölməsi, Qida təhlükəsizliyinə nəzarət sektoru | sektor müdiri | 1 |
| 7 | Şamaxı regional bölməsi, Qeydiyyat və sahibkarlarla iş sektoru | sektor müdiri | 1 |
| 8 | Lənkəran regional bölməsi, Qeydiyyat və sahibkarlarla iş sektoru | sektor müdiri | 1 |
| 9 | Şəki regional bölməsi, Qida təhlükəsizliyinə nəzarət sektoru | baş məsləhətçi | 1 |
| 10 | Şəki regional bölməsi, Bitki sağlamlığı və fitosanitar nəzarəti sektoru | baş məsləhətçi | 1 |
| 11 | Gəncə regional bölməsi, Qida təhlükəsizliyinə nəzarət sektoru | sektor müdiri | 1 |
| 12 | Tovuz regional bölməsi, Qida təhlükəsizliyinə nəzarət sektoru | sektor müdiri | 1 |

Müsahibədə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində inzibati vəzifədə qulluq keçən və müvafiq ixtisas dərəcəsinə malik olan dövlət qulluqçuları iştirak edə bilər.

Müsahibədə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- ərizə;
- kadr uçotunun şəxsi vərəqəsinin surəti (bütün bölmələr üzrə məlumatlar tam olmalı və hazırki dövrü əks etdirməlidir);

**Müsahibədə iştirak etmək üçün ərizələrin qəbulu 18 mart 2021-ci il tarixdən 01 aprel 2021-ci il tarixdə saat $18^{00}$-dək aparılacaq. Ərizələr şəxsən (bazar ertəsi – cümə günləri saat $09^{00}$-dan $13^{00}$-dək və $14^{00}$-dan $18^{00}$-dək), yaxud poçt vasitəsi ilə təqdim edilə bilər.**

Müsahibə zamanı müsahibədə iştirak edən dövlət qulluqçusunun bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, barəsində müsahibə elan edilən vəzifə üçün zəruri olan şəxsi keyfiyyətləri yoxlanılmaqla müvafiq vəzifəyə uyğunluğu müəyyən edilir. Müsahibədə ixtisas dərəcəsi, müvafiq vəzifənin tələblərinə uyğun olaraq təkrar hazırlıq keçirilməsi və ixtisasın artırılması da nəzərə alınır.

Müsahibədə barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçən dövlət qulluqçuları iştirak edə bilərlər.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29.5-ci maddəsinin ikinci hissəsinə əsasən barələrində intizam tənbehi tətbiq edilmiş dövlət qulluqçuları bir il ərzində müsahibəyə buraxılmırlar.

Namizəd müəyyən edilmiş şərtlərə cavab vermədikdə, habelə onun tərəfindən təqdim edilmiş məlumat və sənədlərdə bilərəkdən yanlış məlumatlar verilməsi aşkar edildiyi halda, namizədin müsahibədə əldə etdiyi nəticələr etibarsız hesab edilir.

Müsahibəyə dair ətraflı məlumat almaq üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Hüquq, kadr və icraya nəzarət şöbəsinə müraciət edilə bilər.

**Telefon: 012 565 12 72 (155)**